# İranın növbəti xain əməli

Cənub qonşumuz uğurlarımıza həmişə qısqanclıqla yanaşıb. İran bu münasibətini bəzən gizli, bəzən isə açıq şəkildə sərgiləyib. Bu, istər Azərbaycanda din pərdəsi altında radikal qruplaşmaların yaradılmasında, istər rəsmi şəxslərin zaman-zaman suverenliyimizi şübhə altına alan bəyanatlarında, istər İranın Ermənistanla siyasi-iqtisadi əməkdaşlıq qurmasında, istərsə də zəfərdən sonra Tehranın ölkəmiz üçün yaranmış yeni əlverişli geosiyasi reallığı qəbul etməməsində özünü büruzə verir.

İran 30 ilə yaxın Ermənistanın işğalı altında olan Qarabağın yerüstü və yeraltı sərvətlərinin talanmasında iştirak edib, dini və tarixi mədəniyyət abidələrinin, o cümlədən məscidlərin dağıdılmasına göz yumub. Bütün bu illər ərzində İran rəsmiləri verdikləri bəyanat və açıqlamalarda Azərbaycanla mehriban qonşuluq, din və məzhəb həmrəyliyi, ortaq tarixi və mədəni məqamlara vurğu edərək münasibətlərin "inkişafından" danışıb.

Bu ölkənin son təxribatı isə İran vətəndaşı olan silahlı şəxsin Tehrandakı səfirliyimizə hücumu oldu. Bu silahlı basqın nəticəsində səfirliyimizin bir əməkdaşı həlak oldu, ikisi isə yaralandı. Bəlkə də itkilərimiz daha çox olardı. Amma Vətən müharibəsində olduğu kimi, bu dəfə də bir məqam nəzərdən qaçmışdı: dünyanın hər yerində oğullarımızın canları bahasına Vətənini qoruduğu, xidməti vəzifəsini şərəflə yerinə yetirdiyi göz önündədir.

Vyana Konvensiyasının müddəalarına uyğun olaraq, istənilən ölkədəki diplomatları və ya diplomatik nümayəndəlikləri qorumaq, fəaliyyətlərinin təmini üçün müvafiq tədbirlər görmək həmin ölkənin birbaşa öhdəliyidir və bunun üçün məsuliyyət daşıyır. İran hökumətinin bu öhdəliyi yerinə yetirə bilməməsi və ya yetirməməsi qəbuledilməzdir. İranın molla rejimi nəinki üzərinə düşən vəzifəni yerinə yetirə bilmədi, hətta təxribatın məqsədinin yönünü dəyişdirmək istədi. Bu təxribatı müxtəlif yönlərə çəkməyə çalışsalar da, şəxsi zəmində olduğunu iddia etsələr də, bunun Azərbaycana edilən terror aktı olduğu hamıya məlumdur.

Nəinki xarici ölkə vətəndaşlarına, hətta öz əhalisinə qarşı etdiyi əməllərlə dünyanın qınağında olan İran bu terror aktı ilə bir daha öz simasını göstərdi. Bu cinayət tezliklə araşdırılmalı, beynəlxalq sənədlərə əsasən müəyyən edilmiş öhdəliklər yerinə yetirilməlidir.

İran hökuməti bilməlidir ki, belə terror əməlləri ilə Azərbaycanın gözünü qorxuda bilməz. Çünki həqiqət və ədalət bizim tərəfimizdədir. Təbii ki, Azərbaycan İrana bu cür cılız yollarla cavab verməyəcək, ölkəmiz öz haqqını hüquqi müstəvidə təmin edəcək.

***Nazim İSMAYILOV,***
***YAP Veteranlar Şurasının üzvü***

Azərbaycan. - 2023.- 29 yanvar.- S. 7.